# "İlk təbrik qardaşdan gəldi"

## Türkiyə KİV-i İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana təbrikini manşet xəbəri kimi yaydı

**Böyük türk dünyasının lider dövlətləri olan Azərbaycan ilə Türkiyə arasında dostluğa, qardaşlığa əsaslanan çoxtərəfli və sürətlə genişlənən münasibətlər hər iki ölkəni daha güclü mövqe sahibinə çevirməkdədir.**

Səmimi dostluq, strateji tərəfdaşlıq üzərində köklənən Azərbaycan-Türkiyə münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, tarixin bütün sınaqlarından böyük uğurla çıxır. Qarşılıqlı münasibətlərin daim yüksək səviyyədə saxlanması, milli maraqları əhatə edən məsələlərdə tərəflərin bir-birini təmənnasız müdafiə etməsi Azərbaycan və Türkiyə rəhbərliyinin həyata keçirdikləri uğurlu siyasətin məntiqi nəticəsidir.

Hər iki dövlət istər regionda, istər dünyada, istərsə də öz daxillərində cərəyan edən hadisələrə də kifayət qədər həssaslıqla yanaşır. Bu mənada Türkiyənin qarşıdakı dövr üçün ictimai-siyasi həyatında böyük rol oynayacaq prezident seçkilərinin Azərbaycanın da xüsusi diqqətdə saxlaması tamamilə təbiidir.

Artıq seçkilərin ilkin nəticələrindən məlum olur ki, qardaş ölkədə çoxluq hazırkı prezident Rəcəb Tayyib Ərdoğanı və onun rəhbərlik etdiyi Cümhur İttifaqını dəstəkləyib. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarına telefonla ilk zəng edərək seçkilərin uğurla keçməsi və daha çox səs toplaması münasibətilə onu təbrik edib. Bildirilib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə Respublikası böyük inkişaf yolu keçib və bunun təzahürü olaraq qardaş türk xalqı öz liderinə bu seçkilərdə də etimad göstərib. Rəcəb Tayyib Ərdoğan isə göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirib.

Bu mövzu türk KİV-nin diqqətini cəlb edib və geniş işıqlandırılıb. Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən liderin məhz Prezident İlham Əliyev olması barədə onlarla teleşirkət, qəzet və internet portalı xəbərlər paylaşıb.




"Axşam" qəzeti isə "Türkiyə xalqı liderinə güvəndiyini göstərdi" başlıqlı xəbəri oxuculara çatdırıb. Bildirilib ki, Prezident Ərdoğana ilk təbrik telefon zəngi Azərbaycan Prezidenti İlham Əliyevdən gəlib.

"Milliyət" qəzeti "İlham Əliyev Erdoğanı təbrik etdi" başlıqlı xəbərində yazır ki, Rəcəb Tayyib Ərdoğanı təbrik edən ilk lider məhz Azərbaycan Prezidenti olub: "Türkiyədə seçkilərin nəticələri bəlli olduqdan sonra ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib".

"Türkiyə" qəzeti "İlham Əliyevdən Ərdoğana təbrik zəngi" başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Rəcəb Tayyib Ərdoğanı ilk olaraq təbrik edən Azərbaycan Prezidenti İlham Əliyev seçkilərin nəticələrinə görə bütün Türkiyə xalqını təbrik edib.

"Haber Global" kanalı da "Əliyevdən Ərdoğana təbrik" başlıqlı xəbərə yer ayırıb. Kanal İlham Əliyevin "Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib" fikirlərini diqqətə çatdırıb.

"Sabah", "Posta" "Diriliş Postası", "Takvim" və digər qəzetlərdə "Ərdoğana ilk təbrik zəngi İlham Əliyevdən" başlıqlı xəbərlər dərc edilib.

Eyni xəbərləri agentliklərdən "Anadolu", "ajanskurumu.com.tr", "ekovitrin.com", "mynet.com", "medyradar.com", "habert.com", televiziya kanallarından "TrtHaber" də bölüşüb. "Azərbaycan Lideri Ərdoğanı təbrik etdi" başlığı ilə verilən xəbərlərdə qeyd olunur ki, İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanı zəng edərək təbrik edən ilk dövlət başçısı olması iki qardaş ölkə arasında əlaqələrin yüksək səviyyədə qurulmasının ən bariz nümunəsidir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanı seçkilərdə uğur qazanması ilə bağlı ilk olaraq təbrik etməsinə Türkiyənin media orqanları geniş diqqət ayırıb və bütün bunlar iki ölkə arasında qardaşlığın daha bir bariz təzahürü kimi qiymətləndirilib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*